# Nizami rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər



**Bu gün ölkəmizdə aparılan genişmiqyaslı tikinti-quruculuq işləri Azərbaycan dövlətinin iqtisadi qüdrətinin göstəricisidir. Əsası 1969-cu ildə ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi inkişaf xətti istər keçmiş Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində Azərbaycanda digər sahələrlə yanaşı, tikinti-quruculuq işlərinin də geniş vüsət almasına səbəb olub.**

Şəhər, rayon, qəsəbə və kəndlərdə yeni obyektlər istifadəyə verilib, əhalinin rifahının yaxşılaşdırılmasına və sosial problemlərin həllinə xidmət edən infrastruktur sahələri yaradılıb. Son illər Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarla qəbul edilən dövlət proqramlarının uğurlu icrası da iqtisadiyyatın kompleks inkişafına səbəb olub, tikinti işlərinin əhatə dairəsi xeyli genişləndirilib. Bütün bunlar paytaxt Bakı ilə yanaşı, Azərbaycanın bütün regionlarının sosial-iqtisadi inkişafı ilə nəticələnib. Bu inkişaf isə yeni iş yerlərinin açılmasına, məşğulluq probleminin aradan qaldırılmasına və əhalinin rifahının daha da yaxşılaşdırılmasına xidmət edib. Belə mənzərə paytaxt Bakının Nizami rayonunda da müşahidə edilir. 1980-ci ildə yaradılan, dahi Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyan bu rayonda rahat və geniş yollar, yaşıllıqlara qərq olan abad küçələr, müasir şəhərsalma mədəniyyətinin yüksək tələblərinə cavab verən əzəmətli memarlıq kompleksləri inşa olunur.

### QARA QIZILI İNSAN KAPİTALINA ÇEVİRMƏK

Təhsil hər bir millətin gələcəyi sayıldığı üçün Nizami rayonunda həyata keçirilən tikinti-quruculuq, təmir-bərpa işlərindən söhbət açarkən ilk növbədə buradakı təhsil müəssisələrinin vəziyyətinə diqqət çəkmək istərdik. Amma əvvəlcə onu qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin "qara qızılı insan kapitalına çevirək" ideyasının reallaşdırılması istiqamətində görülən işlər çərçivəsində son illər ölkəmizdə 3 minə yaxın yeni məktəb inşa edilib, bərpa olunub, əlavə korpusların tikintisi həyata keçirilib. Təhsil ocaqlarının kompyuter texnologiyaları ilə təchiz olunması ilə bağlı sərəncam və tapşırıqlara uyğun olaraq, ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı gücləndirilib. Müəllim çatışmazlığını aradan qaldırmaqla bağlı hökumət müvafiq proqram qəbul edib. Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də dövlət səviyyəsində icra olunan fəaliyyət proqramına güclü dəstək verib. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" və "Təhsilə dəstək" layihələri çərçivəsində ölkə üzrə yüzlərlə orta məktəb binası tikilib və bu proses indi də davam etdirilməkdədir. Təbii ki, bütün bu tədbirlər paytaxtın Nizami rayonundakı 22 orta ümumtəhsil məktəbindən, "Zəngi", Kimya-biologiya təmayüllü respublika liseylərindən, Uşaq-Gənclər və Texniki yaradıcılıq mərkəzlərindən, 20 uşaq bağçası, 1 uşaq evi, eşitmə orqanı qüsurlu uşaqlar üçün 2 respublika internat məktəbi, 2 peşə liseyi, 1 peşə məktəbi, 2 kollecdən də yan keçməyib.

### ƏN MÜASİR TƏHSİL STANDARTLARINA CAVAB VERƏN MƏKTƏBLƏR

Dövlət proqramları çərçivəsində Nizami rayonundakı 12, 32, 70, 242 və sair orta məktəblərin binalarında əsaslı yenidənqurma işləri aparılıb, sinif otaqları müasir standartlara uyğun şəkildə təmir edilib. İnventarlar yeniləri ilə əvəz olunub, fənn kabinetləri lazımi avadanlıq və əyani vəsaitlərlə təchiz edilib. Bundan başqa, məktəblərin istilik və işıq sistemi də müasir qaydada yenidən qurulub, təhsil müəssisələri fasiləsiz isti və soyuq su ilə təmin olunub. Məktəblərdəki idman və akt zallarında, yeməkxanalarda, tibb məntəqələrində də ən müasir şərait yaradılıb. Rayonun Keşlə qəsəbəsi Babək prospekti, 2269-cu məhəlləsində 328 nömrəli yeni orta məktəb inşa edilib. Bu təhsil müəssisəsində də müasir tələblərə cavab verən lazımi şərait yaradılıb. Bundan başqa, Nizami rayonu ərazisində ən müasir təhsil standartlarına cavab verən Bakı İstedadlar Təhsil Kompleksi həyata vəsiqə alıb. Azərbaycan Beynəlxalq Təhsil Mərkəzinin beynəlmiləl məktəbi olan bu müəssisənin açılışında dövlət başçısı İlham Əliyev şəxsən iştirak edib. Bakı İstedadlar Təhsil Kompleksi hazırda təkcə Bakıda deyil, Azərbaycanın bütün bölgələrində yaşayan, yüksək intellektual qabiliyyətə və parlaq istedada malik uşaqların aşkara çıxarılması və onlara müasir standartlar səviyyəsində bilik və bacarıqların aşılanması üçün nəzərdə tutulmuş yeni tipli təhsil müəssisəsidir.



### VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN GƏNCLƏRƏ DÖVLƏT QAYĞISI

Valideyn himayəsindən məhrum olan və uşaq evlərində böyüyən gənclər də daim ölkə rəhbərliyinin, Heydər Əliyev Fondunun və Nizami Rayon İcra Hakimiyyətinin qayğısı ilə əhatə olunmaqdadırlar. Buna əyani misal kimi Heydər Əliyev Fondunun təşəbbüsü ilə Çobanzadə küçəsi, 2405-ci məhəllədə valideyn himayəsindən məhrum olan və uşaq evlərində böyüyən gənclər üçün yaşayış binasının inşasını göstərmək olar. Fondun prezidenti, millət vəkili Mehriban Əliyevanın iştirakı ilə açılışı olan bu binada 34 birotaqlı, 32 ikiotaqlı və 2 üçotaqlı mənzil var. Mənzillər məişət avadanlığı, mətbəx, yataq, qonaq otağı mebel dəstləri ilə, soyuducu, qaz sobası, paltaryuyan maşınla təchiz edilib. Belə bir binanın inşa olunması valideyn himayəsindən məhrum olan gənclərin həyat şəraitinin yaxşılaşdırılmasına daim önəm verildiyini bir daha sübut edir. Nizami rayonunda həyata keçirilən tikinti-quruculuq tədbirləri çərçivəsində balaca fidanların təlim-tərbiyə aldığı uşaq bağçası-körpələr evləri də diqqət mərkəzində olub. Rayon ərazisindəki 110, 175, 190 saylı körpələr evləri və uşaq bağçalarının binaları müasir standartlara uyğun olaraq əsaslı təmir edilib, sonrakı illərdə 110 və 172 nömrəli körpələr evi və uşaq bağçaları üçün əlavə korpuslar da tikilib. Bütün bu obyektlərdə qazanxana qurulub, yeni istilik sistemi yaradılıb, bağçalar isti və soyuq su ilə tam təchiz edilib. Körpələr evi və uşaq bağçasının yeməkxanaları ən müasir tələblər səviyyəsinə çatdırılıb.

### SOSİAL-MƏDƏNİ REABİLİTASİYA VƏ CƏMİYYƏTƏ İNTEQRASİYA

Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın iştirakı ilə açılışı olan "Qayğı" reabilitasiya mərkəzi də Nizami rayonundakı tikinti-quruculuq işlərinin nişanəsidir. Ə.Əzimzadə küçəsi, 1 ünvanında yerləşən və fiziki qüsurlu uşaqlara təmənnasız yardım göstərən bağça tipli "Qayğı" reabilitasiya mərkəzində prosedur, yataq, qrup, trenajor, oyun, masaj, həkim otaqları, həmçinin fiziki qüsurlu uşaqların müalicəsi üçün nəzərdə tutulmuş 265 kvadratmetrlik qapalı hovuz var. Reabilitasiya mərkəzi serebral iflic keçirmiş 30-50 uşaq üçün nəzərdə tutulub. Bağça tipli mərkəzdə 3 qrup üzrə 3-6 yaşarası uşaqlar tərbiyə və müvafiq müalicə alır. E.Süleymanov küçəsi, 120 A ünvanındakı Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi də Nizami rayonunda həyata keçirilən tikinti-quruculuq tədbirləri çərçivəsində həyata vəsiqə qazanıb. Mərkəzdə psixologiya, məktəbəqədər hazırlıq, biologiya, zoologiya, kompyuter, loqoped, riyaziyyat, astronomiya və valideyn otaqları, həmçinin heykəltəraşlıq, əmək, xalçaçılıq, tikiş, rəsm dərnəklərinin fəaliyyət göstərdiyi otaqlar, ən müasir avadanlıqlarla təchiz olunmuş kino və teatr zalları, idman zalı, üzgüçülük və müalicə hissələrindən ibarət olan üzgüçülük hovuzu, daun sindromlu xəstələrin rahat qidalanması üçün hər cür şəraiti olan yeməkxana, onların istirahətinin təşkili üçün uşaq əyləncə meydançası, köşklər və açıq idman meydançası var. Bu mərkəz daun sindromlu şəxslərin, eləcə də onların ailə üzvlərinin sosial-mədəni reabilitasiyası və cəmiyyətə inteqrasiyasına xidmət edir.

### DÖVLƏTİN İQTİSADİ İNKİŞAFININ ƏSAS GÖSTƏRİCİSİ

Müasir yol-nəqliyyat infrastrukturu dövlətin iqtisadi inkişafının əsas göstəricilərindən biridir. Paytaxt Bakının digər inzibati əraziləri kimi Nizami rayonunda da yolların bərpası və yenidən qurulması, yeni yol şəbəkələrinin, müxtəlif yol qovşaqlarının, park və xiyabanların, yeraltı və yerüstü piyada keçidlərinin inşası istiqamətində ardıcıl tədbirlər görülür. Misal üçün qeyd edək ki, ötən illər ərzində rayonun Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişməsində, metronun yenidən qurulan "Koroğlu" stansiyasının yaxınlığında müxtəlif səviyyəli yol qovşaqları istifadəyə verilib. Üçkompleksli bu qovşaqlar hava limanı, Qara Qarayev, 20 Yanvar prospektləri, 8-ci kilometr yaşayış massivi, Bakıxanov qəsəbəsi, paytaxtın mərkəzi istiqamətlərində avtomobillərin sərbəst və təhlükəsiz hərəkətini təmin etməklə ərazidə tıxac probleminin həllinə imkan yaradıb. Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişməsində, Babək prospekti, 2269-cu məhəllədə, "Şəfa" stadionunun qarşısında, eləcə də rayonun digər avtomobil yollarında yeraltı və yerüstü piyada keçidlərinin inşası paytaxt sakinlərinin təhlükəsizliyinə xidmət edir.

### ASUDƏ VAXTIN SƏMƏRƏLİ TƏŞKİLİ

Rayon sakinlərinin asudə vaxtlarının səmərəli təşkili, istirahətlərinin mənalı olması üçün Vergilər Nazirliyinin Xüsusi Rejimli Vergi Xidməti Departamentinin inzibati binasının qarşısında, Heydər Əliyev prospektində, Bakı Metropoliteninin "Koroğlu" stansiyasının qarşısında, köhnə sənaye müəssisələrinin yerində yeni parklar salınıb, musiqili alov fəvvarəsi, eləcə də digər fəvvarələr quraşdırılıb. B.Nuriyev küçəsində yerləşən, müasir Azərbaycanın qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin adını daşıyan Heydər Bağı - Park Bulvarı isə tamamilə yenidən qurulub.

### MEMARLIQ RƏMZLƏRİ

Ümumiyyətlə, bu gün paytaxt Bakıda, eləcə də onun tərkibindəki Nizami rayonunda elə bir sahə yoxdur ki, orada tikinti-quruculuq işləri həyata keçirilməsin. Son illər ərzində bu rayonda yeni istehsal müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları üçün müasir binalar və müxtəlif təyinatlı digər obyektlər istifadəyə verilib. Belə obyektlər içərisində nəinki Nizami rayonunun, hətta bütövlükdə Bakı şəhərinin rəmzlərinə çevrilən memarlıq nümunələri də vardır. Buna misal olaraq, Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin, Milli Gimnastika Arenasının, Dövlət Neft Fondunun, 5 saylı Bakı "ASAN xidməti" Mərkəzinin, Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Mərkəzinin binalarını göstərmək olar. Bütün bu faktlar onu deməyə əsas verir ki, Azərbaycanın, o cümlədən paytaxt Bakının inkişafı ilə bağlı həyata keçirilən davamlı və kompleks tədbirlər Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin həyata keçirdiyi siyasətin başlıca istiqamətini təşkil edir. Bütün bunları nəzərə alaraq, tam əminliklə deyə bilərik ki, hazırda reallaşdırılan "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" da paytaxtımızda, o cümlədən də Nizami rayonunda yeni quruculuq nişanələri ilə yadda qalacaq.

**Adəm ABBASLI**

**Yazı Nizami Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim edilir**